# RƏYLƏR

## ERMƏNİ SAXTAKARLIĞININ İFŞASI

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü
Nailə Vəlixanlının Rusiya EA Şərqşünaslıq İnstitutunun
"Vostok" jurnalında dərc edilmiş rəyi haqqında

Azərbaycan tarixçisinin yerli mətbuatda, elmi jurnallarda sanballı məqalələrlə çıxış etməsi, müxtəlif problemlər haqqında qonşu respublikanın tədqiqatçıları ilə elmi po-lemikaya girməsi, yalan və saxta mülahizələri tənqid, bir sıra hallarda isə təkzib etməsi son onilliklərdə tez-tez qarşılaşdığımız mənzərədir. Milli maraqların qorunması üçün vətəndaş mövqeyinin aydın ifadə edilməsi, tarixi keçmişimizə sahib çıxılması, bədxah niyyətlərini ifşa olunması sahəsində atılan addımları təbii qəbul etməyimiz də bununla bağlıdır.

Eyni zamanda, öz haqlı mövqeyimizi daha geniş auditoriyaya, dünya ictimaiyyətinə çatdırmaq, Vətən tarixinin müxtəlif məsələləri haqqında gerçəklikləri, obyektiv həqiqətləri təhrif edilmədən xarici mətbuat səhifələrinə çıxarmaq, beynəlxalq miqyasda nüfuzlu sayılan elmi jurnallarında dərc etdirmək hələ də çox mühüm bir vəzifə kimi qarşımızda durmadadır. Həm də bu zaman müxtəlif maneələri dəf etmək, çoxsaylı erməni havadarlarının müqavimətini qırmaq, ikili standartlarla düşünməyə adət etmiş jurnal sahiblərini insaflı hərəkət etməyə inandırmaq kimi bir çox çətinliklərə sinə gərmək lazım gəlir ki, bu da böyük hünər, az-az rastlaşdığımız qürurverici bir haldır.

Bu baxımdan, akademik Nailə Vəlixanlının Rusiya Elmlər Akademiyası Şərq-şünaslıq İnstitutunun "Vostok" adlı elmi jurnalının 2013-cü ildə 6-cı sayında çap olunmuş "A.K. Şaqinyanın "Naxçıvan Ərəb xilafəti tərkibində" məqaləsi haqqında düşüncələr" adlı böyük həcmli rəyi (səh. 205-215) diqqətəlayiq hadisədir. Rəydə öncə jurnalın oxucularına erməni müəllifinin daha əvvəlki "əsərlərində" istifadə etdiyi metod – ayrı-ayrı müəlliflərin (onların içində erməni, rus və azərbaycanlı tədqiqatçılar vardır) müxtəlif zamanlarda çap etdirdikləri əsərlərdən götürüb, azacıq dəyişikliklərlə özününkü kimi təqdim etdiyi plagiat faktlar haqqında bilgi verilmişdir. Ziya Bünyadov, A.Novoseltsev, Y.Manandyan, A.Ter-Gevondyan kimi tanınmış tədqiqatçıların monoqrafiyalarından köçürdüyü faktları vicdan rahatlığı ilə öz qələminin məhsulu kimi

çap etdirən A.Şaqinyanın bu cür tanıdılmasından sonra, Nailə xanım onun Naxçıvanın Ərəb Xilafəti dövründə hansı inzibati bölgənin tərkibində olması haqqında mülahizələrinə aydınlıq gətirmişdir.

Orta yüzilliklərdə yaşamış ərəb müəlliflərinin Azərbaycan, ümumiyyətlə Qafqaz haqqında yazdıqları əsərləri 50 ildən artıq müddət ərzində dərindən araşdırmış tədqiqatçı kimi postsovet məkanında yetərincə tanınan Nailə xanım erməni müəllifinin məqaləsində istinad etdiyi bütün mənbələri, əsaslandığı hər bir faktı səriştə ilə, yüksək peşəkarlıqla təhlil etmişdir. Həm də bütün məqamlarda son dərəcə korrekt davranmış, elmi etikanı gözləməklə A.Şaqinyanın Naxçıvanı Ermənistan şəhəri kimi təqdim etməsinin tarixi gerçəkliyi əks etdirmədiyini, əsaslandığı mənbələrdəki ziddiyyətli məqamlardan yararlanmasının doğru olmadığını sübut etmişdir.

Məqalədə erməni müəllifinin Ərəb xilafəti dövründə Naxçıvanı Albaniya-Arran şəhəri deyil, Azərbaycan (indiki Cənubi Azərbaycan – Q.Ə.) şəhəri kimi təqdim etməsi və onu Urmiya gölündən qərbdə yerləşdirməsi, Araz çayından şimaldakı Naxçıvan şəhərinin isə Ermənistana aid olması iddiası mötəbər mənbələrdəki konkret faktlarla təkzib edilmişdir. XIII əsrdə yaşamış ərəb müəllifi Yaqut əl-Həməvinin Nəşavə-Nakcuvan-Naxçıvan şəhəri haqqında bəhs edərkən: “Naxçıvan Azərbaycanda böyük şəhərdir. Bəziləri isə deyirlər ki, Arrandadır. O, Ərməniyyə ilə sərhəddədir” – fikrinə aydınlıq gətirilmişdir. Nailə xanım ərəb müəllifi İbn əl-Fəqihin Azərbaycan vilayətinin Bərdədən Zəncana qədər ərazini əhatə etməsi, Əl-Yaqubinin Bərdəni Yuxarı Azərbaycanın son məntəqəsi kimi təqdim etməsi, İbn Hövqəlin öz xəritəsində Xəzər dənizi sahili boyunca Dərbənddən Gilana qədər ərazini Azərbaycan adlandırması, digər xəritəsində isə Ərməniyyə vilayətini Hilat (Van) gölü ilə Araz çayının yuxarı axarı boyunda yerləşdirməsi faktlarına diqqəti yönəltmişdir.

Burada bir məsələni də qeyd etmək lazımdır ki, görkəmli Azərbaycan tarixçisi, akademik Ziya Bünyadov da Arazüstü Naxçıvanın ərəb ağalığı dövründə Ermənistana aid olmadığını çox dəqiq ifadə etmişdir. O, VII əsrin sonunda erməni knyazlarının üsyanını yatırmaq üçün gələn ərəb sərkərdəsinin onları Naxçıvana gətirib kilsədə yandırması haqqında fakta münasibətini bildirərkən, söhbətin hansı Naxçıvandan getdiyini aydınlaşdırmışdır. Görkəmli alim bu məsələdə 1912-1913-cü illərdə akademik İ.Orbelinin Qars vilayətinin Kağızman mahalının bir neçə yaşayış məntəqəsində, o cümlədən Naxçıvanda apardığı tədqiqatlara, aşkar etdiyi epiqrafik yazılara istinad edərək buradakı qədim və divar daşları yanmış kilsənin olması, kilsənin VII əsrdə inşa edilməsi faktlarına diqqəti yönəltmişdir. Eyni zamanda Arazüstü Naxçıvanda aparılan arxeoloji qazıntılarda heç bir kilsə və digər xristian tikilisinin aşkar edilmədiyini də xüsusi qeyd etmişdir.

Nailə Vəlixanlı Ərəb xilafətinin zəiflədiyi, Cənibi Qafqazda müstəqil dövlətlərin yarandığı zamanda da Naxçıvanın Azərbaycan dövlətləri tərkibində inzibati bölgə mərkəzi, Eldənizlər sülaləsinin hakimiyyəti dövründə isə dövlətin paytaxtı olması, eləcə də daha öncə – Sasani ağalığı dövründə bütün

Cənubi Qafqazı əhatə edən Adurbadaqan (Azərbaycan) kustunun tərkibində olması haqqında da müxtəlif xarakterli mənbələrdən əxz etdiyi dəlil-sübutları oxucuların nəzərinə çatdırmışdır.

Bir nümunə ilə fikrimizi yekunlaşdırmaq istəyirik. A.Şaqinyan XIII əsrdə yaşamış erməni müəllifi Stepannos Orbelyana istinad edib I-II əsrlərdə Naxçıvanın Sünik vilayətinin mərkəzi olması haqqında mülahizəsinə cavab olaraq, Nailə xanım erkən orta yüzilliklər dövrü Cənubi Qafqaz tarixinə xüsusi monoqrafiya həsr etmiş və ermənipərəst mövqeyini hər fürsətdə nəzərə çarpdıran Rusiya EA müxbir üzvü A. Novoseltsevin belə bir önəmli fikrini diqqətə çatdırmışdır ki, erməni etnosunun Sünik vilayətinə və Albaniyanın digər bölgələrinə nüfuz etməsi yalnız VI əsrdən etibarən başlanmışdır.

Rəylə tanışlıq göstərir ki, Nailə xanım məqsədinə tam nail olmuş, tariximizlə bağlı növbəti erməni saxtakarlığını ifşa etmişdir. Və inanırıq ki, Naxçıvanın bütün dövrlərdə Azərbaycan ərazisi olduğuna “Vostok” jurnalının obyektiv bilgi almaq istəyən oxucularını da inandıra bilmişdir.

**Qabil Əliyev**
**Tarix üzrə elmlər doktoru, professor**